

***Artıq tarixə qovuşmaqda olan 2021-ci il ərzində Vətən müharibəsində əldə edilən parlaq qələbə nəticəsində düşməndən təmizlənən torpaqlarımızda genişmiqyaslı bərpa-quruculuq tədbirləri həyata keçirilib. Bu, ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyanı şərtləndirib, Azərbaycanın daha sürətli inkişafına əlverişli şərait yaradıb. Eyni zamanda, regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi isə Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyənləşdirilməsində rolunu daha da möhkəmləndirib.***

# 2022-ci ilə möhtəşəm uğurlar və böyük arzularla

## İslahatlar iqtisadi inkişafı daha da sürətləndirir

Pandemiya şəraitində həyata keçirilən tədbirlərin nəticəsidir ki, artıq respublikamızda sosial-iqtisadi nailiyyətlərin davamlılığı və dayanıqlı inkişafı üçün etibarlı zəmin yaradılıb. Təsadüfi deyildir ki, dünyada yaşanan ağır iqtisadi böhran şəraitində belə Prezident İlham Əliyevin çevik, praqmatik siyasəti sayəsində Azərbaycan xarici iqtisadi təsirləri neytrallaşdırıb, nəzərdə tutulan bütün sosial-iqtisadi proqramlar tam icra edilib, iqtisadiyyatımız artıb. Bütün bunlara nail olunmasında isə iqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın minimuma endirilməsi, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi tədbirləri xüsusi önəm kəsb edib.

***(ardı 8-ci səhifədə)***

# 2022-ci ilə möhtəşəm uğurlar və böyük arzularla



*(əvvəli 1-ci səhifədə)*

Azərbaycan əvvəlki dövrlərdə olduğu kimi, 2021-ci ildə də dövlətimizin başçısının rəhbərliyi ilə dinamik inkişaf yolu keçib, bütün sahələrdə ciddi nailiyyətlər əldə edilib, respublikamız öz iqtisadi tərəqqisi ilə inkişafın milli modelini formalaşdırıb. Ölkəmizin hərtərəfli inkişafı, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması xalq-iqtidar birliyini daha da möhkəmləndirib, vətəndaşların Prezident İlham Əliyevin ətrafında sıx birləşməsini gerçəkləşdirib. Dövlət başçısının rəhbərliyi ilə reallaşdırılan mükəmməl iqtisadi strategiya nəticəsində islahatların davamlılığı təmin edilib, iqtisadi inkişaf daha da sürətlənib.

Bu dövrdə həyata keçirilən islahatlar, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafına yönələn tədbirlər bir sıra siyasi dəyişikliklərlə, struktur yenilənmələri ilə müşayiət olunub. Bütün bunların fonunda isə siyasi transformasiya mühiti şəffaflaşıb, aydınlaşıb. Struktur və kadr islahatlarının davamlı xarakter alması özünü qabarıq büruzə verib. Bu, məşğulluq sahəsində şəffaflığın, sosial ədalətin təmin olunmasına, bürokratiya, süründürməçilik, həmçinin korrupsiya, rüşvətxorluq hallarının aradan qaldırılmasına, məmur-vətəndaş təmasının minimuma endirilməsinə öz müsbət təsirini göstərib.

2021-ci ildə sosial-iqtisadi sahələrin inkişafı məqsədilə idarəetmə fəaliyyətinin yenilənməsi diqqət mərkəzində saxlanılıb. Bu, həmin sektorlarda islahatların daha sürətlə aparılmasına, qeyri-neft sektorunun sürətli inkişafına təkan verib.

İqtisadi tərəqqidə "Bizim uğurlu inkişafımız qeyri-neft sənayesinin hesabına təmin edilməlidir" prinsipini strateji kurs kimi müəyyənləşdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə hazırda sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi, qeyri-neft sənayesinin ixrac potensialının artırılması, enerjidən səmərəli istifadə edən, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi, yeni istehsal sahələri üçün ixtisaslı kadrların hazırlanması və s. vəzifələr uğurla gerçəkləşdirilib. Bu tapşırıqların yüksək səviyyədə yerinə yetirilməsi isə müsbət nəticələrlə müşahidə edilib.

## Uğurların statistikası iqtisadi siyasətin məntiqi nəticəsidir

Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar-noyabr aylarında ölkədə 80 milyard 688,2 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,3 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,7 faiz, qeyri-neft-qaz sektorunda isə 6,4 faiz artıb. Əhalinin hər nəfərinə düşən ÜDM 8 min 055,3 manata bərabər olub.

Cari il noyabrın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 16,8 min nəfər və ya 1 faiz artaraq 1 milyon 702,1 min nəfər olub, onlardan 903,6 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 798,5 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib. Hesabat dövründə (yanvar-noyabr aylarında) Azərbaycanda əsas kapitala 11 milyard 708,1 milyon manat məbləğində vəsait yönəldilib .

Azərbaycanda sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2021-ci ilin 11 ayı ərzində 47,9 milyard manatlıq və ya 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 5,5 faiz çox sənaye məhsulu istehsal edilib. Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 20,7 faiz artıb. Respublikada sahibkarlar tərəfindən indiyədək sənaye zonalarına 6,2 milyard manatdan çox investisiya yatırılıb, 9 500-dək iş yeri yaradılıb. Növbəti mərhələdə mövcud layihələr üzrə sənaye zonalarına əlavə 0,4 milyard manat investisiyanın yatırılması və 2 minə yaxın iş yerinin açılması nəzərdə tutulub.

Hazırda ölkədə mövcud olan 7 sənaye parkı və 5 sənaye məhəlləsində indiyədək 5 milyard manatlıq məhsul istehsal edilib, bunun 1,4 milyard manatı – təxminən 28 faizi ixrac olunub.

Bu ilin 11 ayı ərzində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə 7,962 milyard manat vergi daxil olub, proqnoza 121 faiz əməl olunub və ötən ilin eyni dövrünün faktiki göstərici ilə müqayisədə vergi daxilolmaları 15,7 faiz və ya təqribən 1,1 milyard manat artıb.

Qeyd edək ki, bu dövrdə qeyri-neft sektorundan daxilolmalar 5,870 milyard manat təşkil edib və proqnoza 114,8 faiz əməl edilib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu sektordan vergi daxilolmaları 13,5 faiz və ya 697,3 milyon manat artıb.

Bütün bu iqtisadi uğurlarla bərabər, Azərbaycan hazırda Avrasiyanın nəqliyyat habına çevrilir. Bunu son illərdə respublikamızda qurulan nəhəng yol qovşağı, o cümlədən, altı beynəlxalq hava limanı və azad olunan ərazilərdə Füzuli aeroportunun istifadəyə verilməsi, daha iki belə infrastrukturun tezliklə işə salınacağı şərtləndirir.

Bu inkişaf beynəlxalq reytinq təşkilatlarının hesabatlarında da öz ifadəsini tapıb. Məsələn, Davos Forumunun reytinqinə əsasən, Azərbaycan yolların keyfiyyətinə görə 27-ci, hava və dəmir yolları nəqliyyatı xidmətlərinə görə isə müvafiq olaraq 11-ci və 12-ci yerdə qərarlaşıb.

Beləliklə, Azərbaycan artıq Mərkəzi Asiyadan gələn mallar üçün tranzit ölkəyə çevrilib. Çin öz mallarını Avropa məkanlarına buradan daşımağa başlayıb. Azərbaycanın Şimal-Cənub nəqliyyat dəhlizi üzərində yerləşməsi də böyük üstünlük yaradıb. Bu dəhlizin Şimali Avropa, Rusiya, Azərbaycan, İran və Fars körfəzindən keçməsi gerçəkləşib. Dəmir yolu və avtomagistral olmasından asılı olmayaraq, Şimal-Cənub dəhlizinin Azərbaycan seqmentində aparılan bütün tikinti işləri də artıq tamamlanıb.

İkinci Qarabağ müharibəsindən sonra Zəngəzur dəhlizinin fəaliyyətə başlaması üçün real imkanlar yaranıb. Bu dəhliz ilə Azərbaycandan Ermənistana və oradan respublikamızın Naxçıvan bölgəsinə, eləcə də Türkiyə və Avropaya əlverişli alternativ nəqliyyat marşrutunun fəaliyyət göstərəcəyi nəzərdə tutulub.

## İnstitusional təşəbbüslər yeni iqtisadi inkişaf modelinə keçidi təmin edir

2021-ci il yanvarın 22-də Prezident İlham Əliyevin müvafiq fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyindəki "Sumqayıt Kimya Sənaye Parkı" Məhdud Məsuliyyətli Cəmiyyətin əsasında İqtisadiyyat Nazirliyinin tabeliyində publik hüquqi şəxs statuslu İqtisadi Zonaların İnkişafı Agentliyi yaradılıb. Bu məqsədlə ölkədəki bəzi sənaye parkları və məhəllələri "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin tabeliyindən çıxarılıb. Dövlətimizin başçısı bununla bağlı sərəncam imzalayıb. Həmin sərəncama əsasən, Neftçala, Masallı, Hacıqabul, Sabirabad sənaye məhəllələri və Mingəçevir, Qaradağ, Pirallahı sənaye parkları İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyinin tabeliyinə verilib.

İqtisadi Zonaların İnkişafı Agentliyi sənaye parklarının (Balaxanı Sənaye Parkı istisna olmaqla), sənaye məhəllələrinin (Naxçıvan Muxtar Respublikasında yaradılan sənaye məhəllələri istisna olmaqla) və aqroparkların fəaliyyətinin təşkili, onların idarə olunması və inkişafı ilə bağlı tədbirlər hazırlayan, həyata keçirilməsini reallaşdıran, o cümlədən bu istiqamətdə göstərilən dövlət dəstəyi tədbirlərində iştirak edən publik hüquqi şəxsdir.

İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin yaradılması ölkədəki mövcud sənaye parkları, sənaye məhəllələri və aqroparklar sahəsində idarəetməni, habelə nəzarət mexanizmlərini daha da təkmilləşdirmək, bu sahədə həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq, daha sıx koordinasiyanı, həmçinin sistemliliyi təmin etmək məqsədi daşıyıb.

Bu gün bio, fiziki və rəqəmsal texnologiyaların tətbiqində yeni yaradılan agentlik və formalaşmış qanunvericilik bazası mühüm rol oynayır. Parkların ərazisində 10 il ərzində korporativ vergi üzrə 50 faiz güzəşt, idxal olunan avadanlıqlara, texnoloji vasitələrə görə ƏDV-dən, idxal olunan avadanlıqlara, texnoloji vasitələrə görə gömrük rüsumu, həmçinin torpaq və mülkiyyət vergisindən azad olunma kimi stimullaşdırma məsələləri diqqətdə saxlanılır.

## Azərbaycanın investisiya imkanları genişlənir

İl ərzində biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində bir sıra önəmli layihələr icra olunub. Ölkədə xarici investisiya qoyuluşu diqqət mərkəzində saxlanılmaqla yanaşı, dövlət müəssisələrinə ayrılan sərmayələrin səmərəli istifadəsinə də nəzarət gücləndirilib. Belə ki, dövlət müəssisələrinin maliyyə sağlamlığını və dayanıqlılığını yaxşılaşdırmaq, maliyyə resurslarının, habelə xarici borcların cəlb olunmasını səmərəli meyarlar əsasında idarə etmək məqsədilə Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən Azərbaycan İnvestisiya Holdinqi yaradılıb. Bu, dövlət müəssisələrinin profisitinin artırılmasına, onların büdcədən asılılıqlarının azaldılmasına, azad bazar münasibətlərinin hərtərəfli inkişafına, özəl mülkiyyətin genişlənməsinə mühüm təsir göstərib. Başqa sözlə, Azərbaycan İnvestisiya Holdinqinin yaradılması ilə ölkədə vahid idarəetmə modeli işə düşüb və bununla da dövlət şirkətlərinin maliyyə durumlarının yaxşılaşdırılması istiqamətində tədbirlərin həyata keçirilməsinə başlanılıb.

Azərbaycana investisiya qoyuluşuna marağın getdikcə artması, həm də ölkəmizin siyasi cəhətdən sabit olması, milli, dini və irqi tolerantlığı baxımından seçilməsi ilə bağlıdır. Bununla bərabər, respublika hökuməti tərəfindən həyata keçirilən iqtisadi siyasət, aparılan islahatlar nəticəsində ölkədə güclü iqtisadi potensial mövcuddur. Yaradılan əlverişli biznes və investisiya mühiti, Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınması, regionda əlverişli mövqeyə malik mühüm tranzit mərkəzi olması, insan kapitalının inkişafı da ölkəmizin investisiya qoyuluşu baxımından cəlbediciliyini artırır. Eyni zamanda, Azərbaycan beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərini tam şəkildə və vaxtında yerinə yetirir. Ölkəmizin təşəbbüskarı olduğu transmilli layihələr bu gün Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır.

Azərbaycanda investisiya mühitinin yaxşılaşdırılmasının diqqət mərkəzində saxlanılmasının nəticəsidir ki, il ərzində müasir texnologiyaların və qabaqcıl təcrübənin tətbiqi sayəsində ölkəmizdə sənayeləşmə sürətlə inkişaf edib, metallurgiya, maşınqayırma, kimya, inşaat materiallarının istehsalı, qida və digər ənənəvi sənaye sahələri genişlənib, yeni sənaye sahələri yaradılıb, respublikamızda sənaye məhsulları üzrə özünütəminetmə səviyyəsi getdikcə yüksəlib.

***

Gələn il əldə ediləcək uğurların miqyasını genişləndirmək üçün iqtisadi fəallığın, ərzaq təhlükəsizliyinin təmin edilməsi, makroiqtisadi sabitliyin qorunması və milli valyutanın məzənnəsində dayanıqlığının artırılması, işğaldan azad olunmuş ərazilərin bərpası, hərbçilərin sosial-məişət və xidmət şəraitinin yaxşılaşdırılması, infrastrukturun müasirləşdirilməsi, əhalinin rifah halının yaxşılaşdırılması, kommunal, enerji, su və digər xidmət sahələrində keyfiyyətin yüksəldilməsi, yol infrastrukturunun yenidən qurulması qarşıya mühüm vəzifələr kimi qoyulub.

**Vaqif BAYRAMOV, "Xalq qəzeti"**